UOT 94

İSRAİL ƏMİRLİ
Bakı Dövlət Universiteti Tarix fakültəsi,
Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi
amirovisrail04@gmail.com

İSLAMDA DİNİ-SİYASİ TƏRİQƏTLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/110/181-183

Planetimizdə yaşayan insanlar müxtəlif dini inanclara sitayiş edirlər. İslam dini də bu cür sitayiş olunan dinlərdən biridir. Zamanla İslam dinində yeni təriqətlər meydana gəlmişdir. Bunlar dini siyasi təriqətlər olmuşdur. Bu təriqətlərə aid etmək olar, Xariciliyi, Şiəliyi, Sünniliyi, Sufiliyi və onlardan ayrılan bir sıra təriqətləri. Bunlar öz xarakterinə görə dini siyasi təriqətlərdir. Bu amil uzun müddət müsəlman dövlətlərində əsas ideoloji xətt olmuşdur.

Açar sözlər: Din, təriqət, siyasi baxış, İslam, xristianlıq.

Giriş. Təriqətçilik İslam dinində yeni meyllərin yaranması nəticəsində meydana gəlmişdi. İlk təriqətlər İslam dinində yaranan təzadlar nəticəsində yaranmışdı. Bunlara xaricilik, şiəlik, sünnilik və sufiliyi aid etmək olar. Bunlar İslam dininin əsas təriqətləri idi. Lakin sonralar müxtəlif cəmiyyətlərin, fərqli məqsədlər uğrunda birləşməsi yeni dini siyasi təriqətlərin yaranmasına şərait yaratdı. Bütün bunlar İslam dini ilə yanaşı feodalizm dövründə dövlətlərin bölünməsinə və feodal dağınıqlığının yaranmasına əsas yaratdı.

İslamda dini-siyasi təriqətlərinin yaranması. İnsanlıq var olduğu gündən müxtəlif inanc növlərinə inanmışdır. Tək allahlı dinlər yaranana qədər politeizmin dini qanunları ilə, tək allahlı dinlər yarandıqdan sonra isə tək allahlı dinlərin qanunları ilə yaşamışlar. XIX əsrə qədər dünya ölkələri şəriət qanunları ilə idarə olunmuşdur. Burada isə təriqət qanunları meydana çıxmışdır. Təriqətlər dövlətlərin qanunları şəklində əks olunmuşdur.

İlk olaraq təriqətlər, İslam dinində yaranmışdır. İslam dinində ilk yaranan təriqət xaricilik olmuşdur. Bunun ardınca şiəlik, daha sonra isə sünnilik və sufilik təriqətləri yaranmışdır. Bu təriqətlər erkən feodalizm və inkişaf etmiş orta əsrlər dövründə siyasi təşkilatlar funksiyasını yerinə yetirmişdir. Bu dövrdə şərq ölkələrində siyasi təşkilatların meydana gəlməməsi insanların təriqətlər ətrafında birləşməsinə səbəb olmuşdur. Bunun nəticəsində İslam dinində mövcud olan bu dörd təriqət bölünmüş, bu dini-siyasi təşkilatlardan yeni təriqətlər yaranmışdır. Bunun nəticəsində İslam dinin tərkibində yetmişdən çox təriqət meydana gəlmişdir. Bu təriqətlərin hər biri siyasi məqsədlərlə qurulmuş, feodalizmin siyasi partiyaları və qanunları olmuşdur.

İslam dininin bu cür təriqətlərə bölünməsi, dini və siyasi cəhətdən parçalanmış cəmiyyətlərin meydana çıxmasına səbəb olmuşdur. Ona görə də müxtəlif xalqlar və cəmiyyətlər fərqli dini-siyasi təriqətlərdə birləşmişlər. Bu təriqətlərin müxtəlif məqsədlər ətrafında birləşməsi, yeni siyasi davranışların meydana çıxmasına səbəb olmuşdur. Bunun nəticəsində bu təriqətlər mərkəzi hakimiyyətlərə qarşı çıxışlar etmiş, bir sıra ölkələrdə isə onların bu fəaliyyətləri uğurlu nəticələnmişdir.

Şərq ölkələrində dini-siyasi təriqətlərin meydana gəlməsi qərbi Avropa ölkələrinə də təsir etmiş 1054-cü ildə xristian dini də yeni təriqətlərə bölünmüşdür. Bunların içərisində pravoslavlığı və katolikliyi xüsusilə qeyd etmək olar. Bundan sonra bir sıra Avropa ölkələrində qanunverici orqanlar yaransa da (1265 İngiltərədə parlament, 1302 Fransada Baş ştatlar) ümumiyyətlə Avropa ölkələri də təriqət qanunları ilə idarə olunmuşdur. Ondan sonra zamanla xristian dinində də yeni təriqətlər katoliklər, protestantlar, pravoslavlar, lüteranlar, babtistlər və s, yaranmış və digər meyllər meydana gəlmişdir. Lakin demək olar ki, xristian təriqətlərinin bölünməsi, bu dövlətlərin tezliklə birləşməsinə, 1096-1099-cu ildən başlayaraq Şərq ölkələrinə qarşı xaçlı yürüşlərinə səbəb olmuşdur.

Burada bir məsələni qeyd etmək lazımdır ki, dini siyasi təriqətlər əgər bir tərəfdən bölünməyə səbəb olursa, digər tərəfdən birləşməyə səbəb olur. Bu amil özünü zamanla Şərq ölkələrində büruzə vermişdir.

İslamda yaranan yeni dini-siyasi hərəkatlar və təriqət dövlətləri. İslam dinində yeni dini-siyasi təriqətlərin meydana gəlməsi onların müxtəlif məqsədlər uğrunda birləşməsinə səbəb olmuşdur. Məhz bu məqsədlər uğrunda mübarizə onların bəzilərinin yeni dövlətlər yaratmasına, bununla yanaşı həm də feodalizm dövründə siyasi hərəkatların baş verməsinə səbəb olmuşdur.

Yaxın və Orta Şərq kitabında göstərilir ki, VIII əsrin II yarısında xilafətdə yeni cərəyanlar meydana gəldi. Bu cərəyanların üzvləri Abbasi xəlifələrindən narazı olan qruplar idi. Onlar müxtəlif məzhəblərdə birləşərək fəaliyyət göstərirdilər. Bu təriqətlərdən ən geniş yayılmışı İsmaililər idi. İsmaililər VIII əsrin ortalarında İslamın ən böyük təriqətlərindən olan şiə məzhəbindən ayrılmışdılar. Bu təriqətin yaranması, şiə imamı Cəfər əs Sadiqin böyük oğlu İsmayılı varislikdən məhrum edib, Musa Kazımı vəliəhd təyin etməsindən sonra meydana çıxmışdır. Belə ki, İmamın ölümündən sonra, yeddinci imam Musa Kazımı qəbul edənlər imamilər adlanmağa başlamışdır. İsmaililər X əsrdə Qərmətilər və Fatimilər adlanan yeni qollara bölündülər. Onlar 910-1171-ci illərdə mövcud olan Fatimilər xilafətini qurdular.

Qərmətilər isə Əbu Səid-əl Cənəbi adlı şəxsin rəhbərliyi ilə üsyan qaldırmış 899-cu ildə Bəhreyndə özlərinə dövlət qurmuşlar. Onun mərkəzi şəhəri Əl-Aksa idi (1, s.83-84). Bunlar dini siyasi təriqət dövlətləri idi.

Ümumiyyətlə feodalizm dövründə bir amili qeyd etmək lazımdır ki, bu dövrdə Şərqdə yaranan dövlətlərin əksəriyyəti dini dövlətlər idi. Çünki mövcud qanunlar dini- təriqət qanunları idi.

Avropa xaçlılarının səlib yürüşləri nəticəsində, Şərqdə qurduğu dövlətlərin əksəriyyəti də məhz xaçlı dini təriqət dövlətləri idi.

Şərq ölkələrində yaranan müsəlman dövlətləri də təriqət ölkələri idi. Bunlardan Sufilərin qurduğu Səfəvilər dövlətinin və sünnülərin qurduğu Osmanlı dövlətini göstərmək olar. Bu dövlətlərdə özlərinin əsas qanunları kimi təriqət qanunlarını əsas götürürdülər. Məhz dövlətdə yaşayan xalqlar da təriqət qanunları çərçivəsində birləşmişdilər. Ona görə də eyni kökdən olan Osmanlı və Səfəvilər dövləti bu cür təriqətçi meyllərin təsiri nəticəsində bir neçə dəfə XVI-XVII əsrdə müharibələr aparmışlar.

Məqalədə məlumat verilir ki, yeni dövrdə İslamda yaranan təşkilatlrdan biri də Vəhabizm idi. İslamın sünni təriqətinin cərəyanlarından biri kimi tanınan vəhabilik XVIII əsrin ortalarında Ərəbistan yarımadasının mərkəzi ərazilərindən olan Nəcddə meydana çıxıb və tezliklə bölgədə güclü, siyasi hərəkata çevrilib. 1744-cü ildə ibn Səud vəhabiliyi qəbul edir və Əbdülvəhabla "Dəriyyə ittifaqı" adlı bir ittifaq bağlayır. Yeni ittifaqın açdığı imkanlar sahəsində ibn Əbdülvəhab öz təlimini təbliğ edir, ətrafına ardıcıllar toplayır, ibn Səud isə şan-söhrət qazanaraq Ərəbistanı öz hakimiyyəti altında birləşdirmək fürsəti qazanır.

XVIII əsrin 40-cı illərinin ortalarından etibarən Əbdülvahab açıq-aşkar siyasi mübarizəyə qoşulur (2).

Bu mübarizənin nəticəsində XX əsrin 30 cu illərində Vəhabilər Səudiyyə Ərəbistanı adlı dini siyasi təriqətə əsaslanan dövləti yaradırlar.

İslamda yaranan yeni dini-siyasi təriqət hərəkatlardan biridə Babilər idi. Babiçilik bir çox ölkələrdə (Sudanda, Hindistanda və s) tarixin müxtəlif dövrlərində baş vermiş Mehdiçilik hərəkatının davamı idi. Onun rəhbəri Seyid Əli Məhəmməd idi. O, əvvəlcə imam Mehdinin zühur edəcəyini, sonra isə özünün Mehdi olduğunu bildirir. Babilər İran ərazisinə daxil olan mövcud ərazilərdə öz dövlətlərini qurmaq istəyirdilər. Babilər bu dövlətdə yaşamalı digər xalqlar Babi dövlətinə buraxılmamalı idilər. XIX əsrin 40-50 ci illərini əhatə edən bu hərəkatın kökündə şeyxilər təriqətinin fəaliyyətləri dayanırdı. Əsərdə göstərilir ki, şeyxilər təriqəti Səfəvilər dövlətinin dövründən mövcud olmuşdur. Onun yaradıcısı Şeyx Əhməd olmuşdur və Səfəvilərin tənəzülü dövründə daha da fəallaşmışdır (3, s.143).

Ümumiyyətlə feodalizm dövründə İslam dini və xristian dinində yaranan təriqətlər dini siyasi xarakterli olmuşdur. Müasir dövrdə də müsəlman dövlətlərində təriqət münasibətlərinə xüsusi önəm verilir. Hətta bəzi müsəlman ölkələri özlərinin daxili siyasətlərini təriqət qanunları ilə idarə edirlər. Bu hökümətlərdən bəziləri, özlərinin təriqətlərini təbliğ edirlər. Buraya Vəhabizm, Şiəlik, Sünnilik və digər təriqətləri aid etmək olar.

Burada bir məsələni qeyd etmək lazımdır ki, İslam dininin qoyduğu qayda qanunlardan biri də təriqətə (Üsuliddin) malik olmaqdır.

Təriqətçilik isə müasir dövrdə əsasən dini siyasi xarakter daşımaqdadır. Bu təriqətlərin hər birinin dini-siyasi məqsədləri var. Ona görə İslam dininə inancı olan ölkələrdə, bu dövlətlər haqqında məlumat verilərkən onların təriqətləri haqqında da məlumat bildirilir.

Nəticə. Məqalədə İslam dinində mövcud olan təriqətlərin dini siyasi xarakteri analiz edildi. İslamda yaranan təriqətçilik meyllərinin xristian dininə də təsiri göstərilidi. Dini siyasi təriqətlərin, müasir dövrdə də bir sıra dövlətlərin ideoloji xəttinə çevrildiyi qeyd edildi. Təriqətçiliyin müsəlman cəmiyyətində islam dini qayda qanunlarından biri olduğu vurğulandı. Məqalədə bir sıra müsəlman ölkələrində təriqətlərin, dini siyasi xarakterli olması və tarixin müxtəlif dövrlərində bunun əsasında yeni dini siyasi təriqət dövlətlərinin yaranması nəzərdən keçirildi.

ƏDƏBİYYAT

1. İsrail Cəlal oğli Əmirli. Yaxın və Orta Şərq ölkələri tarixi III-XVII əsrlər. Bakı, Poliqraf, 2016, 224 s.
2. Pərvin Abasov. Vəhabilik necə və hansı məqsədlə yaradılıb? / https://lent.az/news/42300 [07.07.2025].
3. Metin Bozkuş. Bahailigin Arka Planı ve Söylemi Üzerine Bir Degerlendirme (Sivas Örneği) // Cumhuriyet Universitesi. İlahiyyat fakültesi dergisi, Yıl: 2002, Cilt: 6, Sayı: 2, s.139-156. - https://dergipark.org.tr/tr/download/article-file/223025 [07.07.2025].

ИСРАИЛ АМИРЛИ
Преподаватель Бакинского государственного университета

РЕЛИГИОЗНО-ПОЛИТИЧЕСКИЕ СЕКТЫ В ИСЛАМЕ

Люди, живущие на нашей планете, поклоняются разным религиозным верованиям. Ислам – одна из таких религий. Со временем в исламской религии возникли новые секты. Среди них также существовал ряд религиозных и политических сект. Это можно объяснить инородностью и шиизмом. От них отделились сунниты, суфизм и ряд сект. По своей природе это религиозно-политические секты. Этот фактор долгое время был основной идеологической линией в мусульманских государствах.

Ключевые слова: Религия, секта, политические взгляды, ислам, христианство.

ISRAIL АМИРЛИ
Lecturer of Baku State University

RELIGIOUS AND POLITICAL SECTS IN ISLAM

People living on our planet worship various religious beliefs. Islam is one of these religions. Over time, new sects have emerged in Islam. Among them, there have also been a number of religious and political sects. These include Khazriyyah, Shiism. Sunnism, Sufism and a number of sects that have separated from them. These are religious and political sects by their nature. This factor has long been the main ideological line in Muslim states.

Keywords: Religion, sect, political view, Islam, Christianity.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 iyul 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. İsmayıl Məmmədov.